**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# 1960-80-CI İLLƏR AZƏRBAYCAN VƏ AMERİKA NƏSRİNDƏ MİFOLOJİ MOTİVLƏR (Y.SƏMƏDOĞLUNUN "QƏTL GÜNÜ" VƏ C.APDAYKIN "KENTAVR" ROMANLARI ƏSASINDA)

İxtisas: 571501 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

İddiaçı: **Səbinə Mübariz qızı Hacıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Gəncə Dövlət Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Nizaməddin Şəmsəddin oğlu Şəmsizadə**

Rəsmi opponentlər: filologiya elmləri doktoru
**Əliyev Rəhim Nadir oğlu**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Gül Ətrabə Bayram qızı**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Rəhimova Ülviyyə Həsaməddin qızı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED–1.05 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: akademik, filologiya elmləri doktoru, professor
________________ **İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
________________ **İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
________________ **Məmməd İrəc oğlu Əliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzüsunun aktuallığı və işlənmə dərəcəsi.** Qloballaşma dünyamiqyaslı hadisə olub, təkcə siyasi-iqtisadi komponentləri deyil, eyni zamanda mədəni, ideoloji, psixoloji və bu kimi bənzər cəhətləri əhatə edən çoxölçülü bir fenomendir. Bu multidisiplinar fenomenin mədəniyyət və ədəbiyyat sahəsində əsas iddialarından biri müxtəlif milli mədəniyyətlərin inteqrasiyasını – bir birinə yaxınlaşmasını, mədəni-mənəvi təmasını təmin etməkdir.

Bu gün müstəqil Azərbaycan dünyada tolerant ölkə kimi tanınır, multikulturalizm konsepsiyası və dünyagörüşü çərçivəsində müxtəlif xalqlara, etnik-milli kimliklərə qarşı hörmət, anlayış və ən humanist şəkildə qarşılıqlı dialoq nümayiş etdirir. Beynəlxalq forumların, qlobal miqyaslı mədəni-sosial tədbirlərin keçirilməsində ev sahibi kimi iştirak edir, millilik və universallıq qarşıdurmasını ən obyektiv prizmadan, hər iki tərəfin prinsip və meyarları ilə ədalətli davranaraq həll etməyə çalışır. Xatırladaq ki, 2011-ci ildən etibarən ölkəmizin ev sahibliyi ilə bütün dünyaya maraqlı olan, qlobal məzmunlu məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələrin yer aldığı Bakı Beynəlxalq Humanitar Forumu keçirilir. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə keçirilən bu silsilə forumların nəzərdə tutduğu məsələlər sırasına mədəniyyətlərarası humanitar və inteqrativ impulslar yaratmaq, humanitar çağırışları aktuallaşdırmaq, qarşılıqlı dialoqun "dəyirmi masa" modelini qurmaq və s. aiddir. Mədəniyyətlərin konvergensiyasını labüd hesab edən forum eyni zamanda ənənəvi dəyərlər sisteminin mühafizəsinə ciddi yanaşmağı vacib məsələ kimi görür, mütəmadi olaraq multiklultural yanaşmada milli-mədəni özünüdərkə, qloballaşma miqyasında ənənə və transformasiya arasındakı keçidlərə diqqət yetirir, bütün bunları gələcəyin konturlarını müəyyənləşdirən detallar kimi nəzərdən keçirir

Belə bir şəraitdə humanitar elmlərin bir sahəsi kimi ədəbi-nəzəri düşüncənin miqyası istər-istəməz genişlənir, o mədəniyyətlərin konvergensiyası kontekstində ədəbiyyatların təmas xəttlərini müəyyən etməyə meyl edir, ədəbiyyatşünaslıq özünə və başqalarına aid olanı tanımağa və təsbit etməyə səy göstərir, ədəbi-mədəni irsimizin qloballaşma prosesinin tam və bərabərhüquqlu iştirakçısı olduğunu

təsdiq etməyə çalışır. Xarici ölkələrin ədəbiyyatının öyrənilməsi, dünya ədəbiyyatının müxtəlif ölkələrdəki regional xüsusiyyətlərinin, ayrı-ayrı xalqların ədəbiyyatındakı müştərək və fərqli cəhətlərin tədqiqi də ön plana keçir ki, bu da mövzunun aktuallığını şərtləndirir. Azərbaycan və Amerika nəsrinin konkret xronoloji dövrdə kəsb etdiyi poetik səciyyənin oxşarlığı və fərqliliyi bədii-estetik təfəkkürün universal və milli miqyaslarını müəyyən etməyə kömək edir ki, bu da qloballaşma və mədəniyyətlərin konvergensiyası şəraitində həlli vacib məsələlərdəndir.

Ədəbiyyatın mahiyyətini izah edən əsas məqamlardan biri də onun miflə, mifik düşüncə ilə bağlılığıdır. Mif mədəniyyətin və ədəbiyyatın nüvəsindəki enerji kimi çıxış edir və bu enerji dinamik səciyyə daşıyır, milli-etnik ənənə zəncirində insana dair müxtəlif mədəni-mənəvi və psixoloji aktların yaranmasında hərəkətə gətirən qüvvə kimi çıxış edir. İncəsənətin, o cümlədən ədəbiyyatın metaforikliyi əslində mifoloji təfəkkürlə genetik əlaqənin nəticəsidir, buna görə də, ədəbiyyat və mifin qarşılıqlı şəkildə öyrənilməsi labüddür və hər zaman aktualdır.

Oxşar ədəbi-tarixi mühitin dominantlığı ilə mifə müraciətin səbəblərini müəyyən edərkən nəsrin poetikasından çıxış etmək dissertasiya işinin aktuallığını başqa bir istiqamətdə də üzə çıxarır. Belə ki, istənilən ədəbiyyat əsərini poetik bütövlük aspektindən təhlil etmək müasir ədəbiyyatşünaslığın əsas tendensiyalarından biridir, ədəbi əsərin təhlilində struktur-semantik tamlığı gözləmək, mətnin məzmun və forma elementləri arasındakı harmoniyadan çıxış etmək onun əsas məqsədlərindəndir. İşin aktuallığını səciyyələndirən bu üç aspektin (qloballaşma prosesində ədəbi inteqrasiyanın mahiyyəti, 1960-80-ci illər nəsrinin poetikası kontekstində oxşarlıqların təsbiti, mifik təfəkkürün çağdaş bədii düşüncədə, o cümlədən nəsrdə yeri) kompleks şəkildə tədqiqini və təhlilini nəzərə alsaq, təqdim olunan dissertasiya bu istiqamətdə atılmış ilk addımdır.

Mövzunun işlənmə dərəcəsinə gəldikdə qeyd etməliyik ki, Azərbaycan-Amerika ədəbiyyatlarının qarşılıqlı şəkildə öyrənilməsi istiqamətində ilk fundamental tədqiqat Zeydulla Ağayevə ("Azərbaycan-Amerika ədəbi əlaqələri", 1996) aiddir. N.Nuriyevanın "Teodor Drayzer və Azərbaycan" (1997), S.Vəliyevanın "Ernest Heminquey və Azərbaycan" (1998), Ü.Məmmədovanın "Amerika və

Azərbaycan nəsrində mənəvi-etik axtarışların müqayisəsi (F. S. Fitscerald və Ə. Əylisli yaradıcılığı əsasında) (2010), M.Babayevin “Con Steynbek yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə müqayisəli kontekstdə” (2011), R.Ömərovun “XX əsr ABŞ və Azərbaycan ədəbiyyatında elmi-fantastik janr (Ayzek Əzimov və Emin Mahmudovun yaradıcılığı əsasında)”(2011), A.Sabitovanın “Azərbaycan və Amerika ədəbiyyatında romantizm cərəyanı: tipologiyası, tarixi” (2014), Ş.Qurbanovanın “Amerika ədəbiyyatı Azərbaycan ədəbiyyatşünaslığında” (2014), A.Əsədovun “Yeni Amerika (ABŞ) nəsri və Azərbaycan ədəbi-nəzəri fikri” (2014), N.Aslanovanın “Amerika və Azərbaycan romantizmində şəxsiyyət konsepsiyası (Herman Melvill və Cəfər Cabbarlının yaradıcılığı əsasında) (2014) adlı tədqiqat işləri Amerika və Azərbaycan ədəbiyyatlarının tipoloji müqayisəsi istiqamətində atılmış addımlardır. Bundan başqa Amerika ədəbiyyatının müxtəlif dövrlərinə və şəxsiyyətlərinə dair yazılmış onlarla tədqiqat işinə rast gəlmək mümkündür. Həmin tədqiqat işlərində 1960-80-ci illər Amerika ədəbiyyatına dair bəzi nümunələr təhlilə cəlb olunsa da, Con Apdaykın yaradıcılığı bu tədqiqatların əhatə dairəsindən uzaq qalmış, baxmayaraq ki, Con Apdayk hələ öz sağlığından dünya miqyasında ən çox öyrənilən müəlliflərdən biri olmuşdur, onun ədəbi-bədii irsi barədə ədəbiyyatşünaslığımızda demək olar ki, heç bir elmi-nəzəri şərhə rast gəlinməmişdir.

Yusif Səmədoğlu yaradıcılığının kompleks şəkildə öyrənilməsinə dair müxtəlif işlərə (Lətafət Əliyevanın “Yusif Səmədoğlunun yaradıcılığı” (2008), Leyla Əliyevanın “Yusif Səmədoğlunun nəsrində yaddaşın bədii-estetik funksiyası” (2018)) rast gəlinir ki, bu işlər daha çox konkret bir müəllifin yaradıcılığının monoqrafik və sistemli tədqiqinə əsaslanır, mövzunu başqa ədəbiyyatlarla müqayisə predmetinə qismən çevirir. Qeyd edək ki, Leyla Əliyevanın dissertasiya işində Yusif Səmədoğlu yaradıcılığında mifoloji yaddaşın rolu ayrıca paraqrafda tədqiq olunub, türk milli-etnik düşüncəsi ilə bağlılıq mexanizminə maraqlı izah verilir.

Adlarını burada çəkdiyimiz və çəkmədiyimiz onlarla tədqiqat işinin ayrı-ayrılıqda elmi-nəzəri əhəmiyyətini inkar etmədən deyə bilərik ki, 1960-80-ci illər Amerika və Azərbaycan nəsrində mifoloji motivlərin

öyrənilməsi, həm də hər iki ədəbi auditoriyanı öz yenilikləri ilə, sözün yaxşı mənasında çaşdıran iki mürəkkəb səciyyəli roman mətni əsasında öyrənilməsi ədəbiyyatşünaslığımızda ilkdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti XX əsrin 60-80-ci illər nəsridir, Azərbaycan və Amerika nəsrindən seçilmiş əsərlər də təsadüfi səciyyə daşımır. Amerika yazıçısı Con Apdaykın "Kentavr" [1963] və Azərbaycan ədibi Yusif Səmədoğlunun "Qətl günü" [1984] 60-80-ci illəri yeni və müstəqil ədəbi-tarixi epoxa kimi açıb bağlayan, çevrələyən əsərlər idi. Belə ki, Amerika nəsri 60-80-ci illərə "Kentavr"la (və bu tipli başqa əsərlərlə-S.H.) manifest xarakterli giriş edirdisə, Azərbaycan nəsrində "Qətl günü" (və bənzər əsərlərlə – S.H.) "60-cılar" adlanan epoxanın gətirdiyi bütün yeniliklərinin mədəni-məntiqi nəticəsi, poetik-estetik yekunu idi. Ötən əsrin 60-80-ci illərinin mədəni-psixoloji, sosial-fəslsəfi və bədii-estetik fərqliliyini təsbit etmək, həm də dünyamiqyaslı bir hadisə olduğunu göstərmək baxımından hər iki əsərin obyekt kimi seçilməsi bu baxımdan qanunauyğundur. 1960-80-ci illər Amerika və Azərbaycan nəsrini eyni tədqiqatda birləşdirən hər iki ədəbi dövrün, konkret olaraq bu dövrü təmsil və simvolizə edən iki əsərin təhlilində ortaq predmetə - mifoloji motivlərə müraciətdir. Müxtəlif milli-etnik mənsubiyyətli ədəbiyyatların təmas nöqtəsində mifoloji motivlərin predmetləşməsini aktual edən ən əsas məqam ədəbiyyatların qloballaşma kontekstində özünəməxsusluqlarını qoruma qabiliyyətini aşkarlamaqdır. Ayrı-ayrı xalqların ədəbi-bədii yaradıcılığının nüvəsindəki mifik enerjinin milli-etnik səciyyəsini üzə çıxarmaqdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Təqdim olunan dissertasiya işinin əsas elmi məqsədi qloballaşma kontekstində ədəbiyyatların tarixinə yeni mərhələ kimi daxil olmuş 1960-cı illər nəsrində, eyni zamanda onun məntiqi və bədii-estetik konseptual davamı olan 1980-ci illər nəsrində istər ideya-məzmun, istərsə də janr və poetika baxımından mifik təfəkkürə müraciətin prinsiplərini aşkara çıxarmaqdır. Bu mənada tədqiqatın əsas problemi nəsrdə mif və müasirliyin mürəkkəb sintezini çözməkdir. Mifin müasirliklə sintezini, "modern dünya"ya (çağdaş insan zəkasına) gəliş mexanizmini şərtləndirən amilləri, bu prosesi yetişdirən ədəbi-mədəni mühiti şərh etmək tədqiqatın əsas elmi məqsədinə daxildir. Bu məqsədə nail olmaq üçün aşağıdakı elmi vəzifələr yerinə

yetirilib:

- 1960-80-ci illər dünyamiqyasında ədəbiyyatda yeni mərhələ kimi araşdırılıb, epoxanın ədəbi-tarixi xüsusiyyətləri nəzərdən keçirilib;
- Həmin dövr Azərbaycan və Amerika nəsrini səciyyələndirən bədii-estetik yeniliklər təhlil olunaraq nəzəri-tarixi kontekstdə sistemləşdirilib;
- Azərbaycan və Amerika nəsrində mifik təfəkkürə müraciətin ədəbi-tarixi və bədii-fəlsəfi səbəbləri müəyyənləşdirilib;
- Mifdə mövcud olan düşüncə modelinin müasir nəsr müstəvisində interpretasiyasının poetik mexanizmi təhlil olunub;
- Y.Səmədoğlunun "Qətl günü" romanında Baba Kaha obrazının simvolikası və mifik düşüncə ilə bağlılığının bədii və fəlsəfi mahiyyəti tarixilik və müasirlik kontekstində analitik təhlilin predmetinə çevrilib;
- Con Apdaykın "Kentavr" romanında qədim Kentavr mifinin semantik və simvolik şərhinin müasir insanın psixoloji ovqatını və mental əhval-ruhiyyəsini izah etmə qabiliyyətinə və gücünə diqqət yetirilib, mif və onun modern şərhi müqayisəli təhlilə cəlb olunub;
- Hər iki romanda ayrı-ayrılıqda mifoloji motivlərin rolunu və yerini təsbit etməklə insan və tarix, insan və mifik aləm, insan və zaman kimi bədii-fəlsəfi problemlər nəzərdən keçirilib;
- Hər iki romanda mifoloji motivlərin ideya-bədii və fələfi-estetik funksionallığını şərh etməklə ədəbiyyatın universallıq və millilik zəminində kəsb etdiyi keyfiyyətlərə diqqət yetirilib;

**Tədqiqat metodları.** Tədqiqatın metodoloji istiqamətini mif və ədəbiyyat arasındakı əlaqələrin mexanizminin təhlilinə dair müxtəlif nəzəri konsepsiya və məktəblərin qənaətləri, nəsrdə mifologizmin rolunu və yerini izah etməyə yönəlik tədqiqatlar müəyyənləşdirir. M.Bosvell, K.Hemilton, C.Morley, R.Detveyler, C.MakTeviş, L.B.Matseno, D.Qreyner, B.Kiner kimi Con Apdayk yaradıcılığı fərqli aspektlərdən, o cümlədən, mifologizm yönündən öyrənən araşdırmalar, M.Meletinskiy, R.D.Orlova-Kopelova, A.M.Zverev, N.V.Kuznetsova, N.L.İtkina, M.O.Mendelson, T.N.Denisova, A.A.Elsitratova və digər rus ədəbiyyatşünaslarının Apdayk yaradıcılığı ilə bağlı elmi nəticə və

qənaətləri, Azərbaycan ədəbiyyatşünaslığında mif və ədəbiyyat münasibətlərinin şərhinə dayanan tədqiqlər dissertasiyanın metodoloji bazasını müəyyən edir. P.Əfəndiyev, M.N.Təhmasib, M.Seyidov, K.Abdulla, M.Kazımoğlu, K.Əliyev, A.Acalov, A.Hacılı, C.Bəydili, P.İsayeva, F.Bayat və başqaları ədəbiyyatın genetik yaddaşındakı miflə bağlı yetərincə konseptual, yeni elmi-nəzəri mülahizələr irəli sürmüşlər. 1960-80-ci illər Azərbaycan nəsrinin öyrənilməsi istiqamətində Y.Axundov, Y.Qarayev, H.Ənvəroğlu, Q.Xəlilov, T.Salamoğlu, V.Yusifli, T.Mustafayev və başqa müəlliflərin dövrün ümumi koloritinə yönəlik, müxtəlif tematikalarda tədqiqatları vardır ki, bu tədqiqatlarda irəli sürülən fikirlər təqdim olunan dissertasiya işinin nəzəri metodoloji qaynaqları kimi önəmli səciyyə daşıyır. Tədqiqat mifoloji konsepsiyaların metodoloji baza və qənaətlərinə, komparativistik təhlilin əsas prinsiplərinə istinadən fərqli mifik nüvədən törəyən fərqli ədəbiyyatların oxşar mədəni-ədəbi mühitdə bənzər xüsusiyyətlər göstərmə və bu xüsusiyyətləri poetik cəhətdən bənzər təzahür etdirmə qabiliyyətini aşkara çıxarmağa çalışır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- 1960-80-ci illər Azərbaycan və Amerika nəsrində ideya-bədii və fəlsəfi-estetik paralelliklərin təsbiti;
- Y.Səmədoğlunun "Qətl günü" və C.Apdaykın "Kentavr" romanlarında mifoloji motivlərin funksionallğının tədqiqi;
- Hər iki ədəbiyyatda mifə qayıdış və onun bədii-fəlsəfi nəticələrinin nəzəri-tarixi mahiyyətinin müəyyənləşdirilməsi;

**Tədqiqatın elmi yeniliyi** bu mövzunun ilk dəfə dissertasiya səviyyəsində, eyni zamanda inteqrasiya, nəsr, mif kimi ayrı-ayrılıqda ciddi nəzəri səriştə və yanaşma tələb edən problemlərin sintezi şəklində təhlilinə əsaslanmasıdır. İlk dəfədir ki, 1960-80-ci illər Azərbaycan və Amerika nəsri etnik, regional, mədəni status fərlqərinə rəğmən mifik düşüncəyə – mif amilinə müraciət kontekstində şərh olunur, hər iki ədəbiyyatın simasında ədəbiyyatın dünyamiqyaslı özünüyeniləmə prosesinə diqqət yetirilir, 1960-cı illərdən etibarən ədəbiyyatın məzmunca və formaca dəyişməsində mifə müraciət faktının önəmi və əhəmiyyəti vurğulanır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada 1960-80-ci illər nəsrində inteqrasiya və mifə qayıdış

kontekstindəki dəyişmələr dünyamiqyaslı hadisə kimi araşdırılır, bu Azərbaycan ədəbiyyatşünaslığının tədqiq arealını genişlədir, milli ədəbiyyatı dünyada gedən ümumi prosesin bərabərhüquqlu iştirakçısı kimi tədqiq edir. Tədqiqatın nəzəri müddəaları və nəticələrindən tematikasına uyğun olaraq ədəbiyyat nəzəriyyəsi, ədəbiyyat tarixi, müqayisəli ədəbiyyatşünaslıq sahələrində, o cümlədən nəsrin poetik təhlili, çağdaş ədəbiyyatda mifin təzahür mexanizmi ilə bağlı işlərdə istifadə edilə bilər. Dissertasiya işi ali təhsil müəssisələrində ədəbiyyatın tədrisində metodik vasitə kimi təcrübi əhəmiyyətə malikdir.

**Dissertasiyanın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində müəyyən olunub, İnstitutun Elmi Şurasında və Koordinasiya Şurasında təsdiq olunub. Dissertasiya işi ilə bağlı müəllifin tədqiqatları Beynəlxalq və Respublika elmi konfranslarının materiallarında, Azərbaycanda və xaricdə nüfuzlu elmi nəşrlərdə, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan jurnallarda öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Gəncə Dövlət Universitetinin Azərbaycan və Dünya Ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu və işarə ilə ümumi həcmi.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun qaydada yazılmışdır. Dissertasiya işi titul səhifəsi 470 şərti işarə sayı, mündəricat 1163 şərti işarə sayı, giriş 15322 şərti işarə sayı, əsas məzmun 187 231 işarə sayı (I fəsil: 88823 şərti işarə sayı, II fəsil: 85022 şərti işarə sayı , III fəsil 101837 şərti işarə sayı), nəticə 10718 şərti işarə sayı və istifadə edilmiş ədəbiyyat siyahısı 18070 şərti işarə olmaqla ümumilikdə 321437 şərti işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs olunmuş, tədqiqatın məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki

əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiya işinin birinci fəsli **“1960-80-ci illər Azərbaycan və Amerika nəsrində mifə qayıdış”** adlanır. İki paraqrafdan ibarət olan birinci fəsildə mif və ədəbiyyatın sinkretik vəhdəti, mifə müraciətin ədəbi-tarixi səbəbləri mifoloji konsepsiyalar əsasında nəzəri səpgidə tədqiqata cəlb edilir.

Bu fəslin “**Mif və ədəbiyyatın sinkretik vəhdəti**” adlı birinci paraqrafı tədqiqatın metodoloji istiqamətini müəyyənləşdirir, ədəbiyyat və mif arasındakı əlaqə mexanizminin mürəkkəb səciyyəsinə nəzər yetirir. Qeyd edilir ki, ədəbiyyat mədəniyyətin əsas dominant fiqurlarından biridir, mənsub olduğu milli-mədəni-mənəvi kontekstin bütün kod və işarələrini özündə daşıyır, milli kimliyin yaddaşından törəmə qabiliyyəti ilə seçilir, eyni zamanda yeniliklərə daim açıqdır, təxəyyülün sərhədsizliyində formalaşır. Ədəbiyyatın mahiyyətini izah edən başqa bir mühüm məqam da var, bu da onun miflə, mifik düşüncə ilə bağlılığıdır. “*Dünya mədəniyyəti və ədəbiyyatına miflərin ölməzliyini təmin edən başlıca xüsusiyyətlərdən biri məhz onların məna nüvəsinin pozuntuya yol verməyərək yaşamağa davam edə bilməsidir*”[1].

Dünya filoloji fikrində bədii ədəbiyyat və mif arasındakı əlaqələri şərh edən bir sıra nəzəri yanaşmalar mövcud olmuşdur, onların gəldiyi ümumi qənaət isə belədir ki, ədəbi-mədəni təcrübənin əsasında, kökündə ayrı-ayrı xalqların mifləri dayanır. Məsələn, “mifoloji məktəb” (Qrim qardaşları) və “iqtibas nəzəriyyəçiləri” (E.Taylor və b.) miflərin öncüllük etmək funksiyasına diqqət yetirir, onları mədəniyyətin, o cümlədən ədəbiyyatın təməl daşları kimi səciyyələndirirdilər. Bu baxımdan Pərvanə Bəkirqızının mif və ədəbiyyat probleminin qoyuluşu ilə bağlı nəzəri ümumiləşdirməsi özünü doğruldur, alimə görə “*mədəniyyətlərin və xüsusən də ədəbi-bədii fikir tarixinin araşdırılması belə bir həqiqəti sübuta yetirir ki, özünün bütün inkişaf mərhələləri boyunca ədəbiyyat həmişə mifoloji irslə, mifoloji düşüncə tipi ilə sıx və qarşılıqlı münasibətdə olmuşdur. Ona görə mif, mifologiya, mifopoetika məsələləri müasir humanitar elmlərin (kultorologiya, etnoqlinqvistika, ədəbiyyat nəzəriyyəsi və b.) daimi diqqət mərkəzindədir*”[2].

---

[1] Bəkirqızı, P. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu / P.Bəkirqızı. Monoqrafiya. – Bakı: Elm və təhsil, – 2015, – s.8

[2] Yenə orada, s.18

Mif mədəniyyətin və ədəbiyyatın nüvəsindəki enerji kimi çıxış edir və bu enerji dinamik səciyyə daşıyır, o, milli-etnik ənənə zəncirində insana dair müxtəlif mədəni-mənəvi və psixoloji aktların yaranmasında hərəkətə gətirən qüvvədir. Qlobal mədəni-mənəvi təmas müxtəlif ədəbiyyatların fərqli və oxşar cəhətləri aşkara çıxaran şəraiti təmin edir, bu zaman ədəbiyyatlar zaman və məkan koordinatlarına bağlı göstəricilərlə yanaşı, nüvəsindəki mifoloji təfəkkürün də müqayisə predmetinə çevrilməsini istəyir.

P.Bəkirqızı XX əsr ədəbiyyatında mifin statusunu müəyyən edərkən mifin fərqli interpretasiyalarının təsnifat modelini təqdim edir: "*a)əsas mifoloji situasiyaların və mif personajlarının parodiya olunması; b) arxaik təfəkkür sxemlərinin bərpası; c) arxaik mifin düşüncənin ayrılmaz başlanğıcı olaraq oxucu ilə müəllifi birləşdirməsi*"[3]. Mif başlanğıcda insanların dünyanı dərk və təsvir vasitəsidir, dünyanın bütöv şəkildə, maddi və mənəvi tərəfləri ilə birgə təfəkkürdə inikasıdır. Bəşəri düşüncənin köküdür, qaynağıdır, buna görə də, texnologiyanın, elmin, bilginin maksimum inkişaf səviyyəsinə çatdığı günümüzdə belə bizimlə bərabərdir. Mifin enerjisi müxtəlif şəkillərdə, formalarda və üsullarda özünə büruzə verməyə hazır olan aktivliyə sahibdir.

Ədəbiyyat və mif arasındakı diaxron əlaqə təkamül prinsipləri ilə tənzimlənir, cəmiyyətin və mədəniyyətin formalaşma çağının məhsulu olan mif ədəbiyyatın yaranmasının təkanverici gücü kimi şərh olunur. Ən müasir bədii mətnin struktur-semantik bətnində miflərdən izlər bu və ya digər dərəcədə qalır. Bəzən müxtəlif xalqların ədəbiyyatı məhz mifik təfəkkürün izlərinə görə bir-birilə yaxınlaşır, bir-birinə bənzəyir. Kamal Abdulla yazır: "*Müxtəlif xalqların mifoloji sistemlərindəki hər hansı bir süjet xətti, hər hansı bir obraz oxşarlıq təşkil edə bilər. Bu oxşarlıq onların hər birində variantların mövcudluğundan xəbər verir. Bir variant, iki variant, üç varinat... artıq geniş müqayisələr üçün yol açır. Oxşar cəhətləri və fərqli cəhətləri ayırmağa imkan verir*"[4]. Alimin fikrincə oxşar variantlar çoxluqlar kimi müəyyən bir ümumiləşdirmənin

---

[3] Bəkirqızı, P. Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu / P.Bəkirqızı. Monoqrafiya. – Bakı: Elm və təhsil, – 2015, – s.13

[4] Abdulla K. Seçilmiş əsərləri: [7 cilddə] / K.Abdulla. – Bakı: Mütərcim, – c. 4. – 2020. – s.198

içində əriyir ki, məhz bu ümumiləşmə həmin konkret varinatları özündə ehtiva edən ilkin anavarinatdır. Anavariantla invariantlar arasındakı əlaqəni çözmək mif və ədəbiyyat arasındakı əlaqənin sinxron tərəfinə diqqət çəkir, tipoloji əlaqə tipini aktuallaşdır. Mif və ədəbiyyat tipoloji aspektdən təhlil obyektinə çevrildikə, oxşarlıqlar və fərqliliklər, dünyanı dərk və əks etdirmə məqamındakı özünəməxsus cəhətlər aşkara çıxır. Məlumdur ki, bəzi mənbələrdə XX əsr "*mifə qayıdış, yaxud mif əsri*"[5] deyə səciyyələndirilməkdədir.

Mif və ədəbiyyatın sinkretik vəhdətini C.Apdaykın "Kentavr" və Y.Səmədoğlunun "Qətl günü" əsərlərinin təhlili ilə aydınlaşdırmaq mümkündür. Hər iki müəllif bir çox məsələlərlə yanaşı, miflərə xas simvolları, həm də mövzu çalarlarını qorumaqla mühüm ictimai problemləri ifadə etmişlər. Burada həm milli problemlər, həm də XX əsrdə insanların məruz qaldığı çətinliklərdən, ziddiyyətlərdən doğan mənəvi böhran ifadəsini tapır. Hər bir xalqın dünyagörüşü mifdən müsirliyə doğru təkamül edir, hər yeni zamanın tələb və istəyinə uyğun olaraq yenidən qavranılır, daha doğrusu hər yeni gələn nəsil mifdə [ümumən klassik irsdə – S.H] yeni həqiqətlər kəşf edir, öz taleyi ilə bağlı qarşılaşdığı suallara cavab axtarır. C.Apdaykın "Kentavr"ı, Y.Səmədoğlunun "Qətl günü" – birincisi 1960-cı illər Amerika oxucusunun, ikincisi isə 1980-ci illər Azərbaycan oxucusunun qarşılaşdığı mübhəm suallara mif kontekstində cavab verən dərin məzmunlu əsərlərdir.

Birinci fəslin **"Mif və müasirlik: mifə müraciətin ədəbi-tarixi səbəbləri"** adlanan ikinci paraqrafında 1960-80-ci illər dünyamiqyasında ədəbiyyatda yeni mərhələ kimi araşdırılır, epoxanın ədəbi-tarixi xüsusiyyətləri nəzərdən keçirilir, həmin dövr Azərbaycan və Amerika nəsrini səciyyələndirən bədii-estetik yeniliklər təhlil olunaraq nəzəri-tarixi kontekstdə sistemləşdirilir. Azərbaycan və Amerika nəsrində mifik təfəkkürə müraciətin ədəbi-tarixi və bədii-fəlsəfi səbəbləri müəyyənləşdirilir. Vurğulanır ki, XX əsrdə istər bədii ədəbiyyat, istər incəsənət, istərsə də fəlsəfə mifə müraciət etməklə yeni yaradıcılıq yolları, düşüncələri üçün yeni ifadə və izah üsulları axtarmış,

[5] White, J.J. Mythology in the Modern Novel / J.J.White. – Princeton: Princeton University Press, – 2015. – p.7

yeni prinsiplər yaratmağa çalışmışdır.

Qloballaşma kontekstində ədəbiyyatların tarixinə yeni mərhələ kimi daxil olmuş 1960-cı illər nəsrində, eyni zamanda onun məntiqi və bədii-estetik konseptual davamı olan 1980-ci illər nəsrində istər ideya-məzmun, istərsə də janr və poetika baxımından mifik təfəkkürə – mif amilinə müraciətin öz ədəbi-tarixi səbəbləri vardır, eyni zamanda bu müraciət nəsrdə mif və müasirliyin mürəkkəb sintezini yaradır. Mifik düşüncədən qaynaqlanan obrazlar sisteminin, motiv və elementlərin, poetik detalların 1960-80-ci illər Azərbaycan və Amerika [ümumən dünya] nəsrinə gəlişi çox mürəkkəb sosial-tarixi, mədəni-fəlsəfi məsələlərə dayanır. Mifin müasirliklə sintezini, "modern dünya"ya (çağdaş insan zəkasına) gəliş mexanizmini şərtləndirən amillər ortaya çıxmışdı, bu prosesi yetişdirən ədəbi-mədəni mühit formalaşmışdı.

Bəşəriyyət XX əsrin təkcə ilk yarısında iki dünya miqyaslı müharibə yaşamışdı. Lakin ümumi rəyə görə, İkinci Dünya müharibəsi daha dağıdıcı və fəlakətli idi, belə ki, müharibədə iştirak edən dövlətlərin sayı, hərbi savaş metodları və vasitələri baxımından olduqca qorxunc yekunlara səbəb olmuşdu. Bu müharibənin səbəb olduğu mənəvi böhranın miqyası isə daha dəhşətli oldu. Antihitler koalisiyasının iştirakçıları kimi həm keçmiş SSRİ, həm ABŞ bu müharibənin acı nəticələri ilə üz-üzə qalmışdılar. Ədəbiyyat bu üzüntünü sadəcə müşahidə etmirdi, ona özünəməxsus reaksiya verirdi, çünki, insan və insana dair mövzulara həssas münasibət ədəbiyyatın məğzini təşkil edir. Müahribədən sonrakı onilliklərdə ədəbiyyat həm SSRİ-də, dolayısı ilə, Azərbaycanda, həm də Amerikada tamamilə fərqli mərhələyə daxil olmuşdu, bədii təfəkkür dünyanın təqdim etdiyi yeni mövzulara yeni yanaşma nümayiş etdirirdi

Azərbaycan ədəbi-nəzəri fikrində "Yeni nəsr", "60-cılar" istilahları ilə ifadə olunan bu dövr haqqındakı elmi-qənaətlərdən biri də bu idi ki, "*...uzun müddət ideoloji sərhədləri ilə bir-birindən ayrılsalar da, Qərb mədəniyyəti və sosializm realizmi məkanında inkişaf tapan mədəniyyətlər arasında qarşılıqlı əlaqə və təsirlər də olmuşdur*"[6]. 1950-ci illərin ikinci yarısı, 60-cı illərin əvvəllərində Fransada "Yeni roman"

---

[6] Əlişanoğlu T. Azərbaycan yeni nəsri. / T.Əlişanoğlu. - Bakı: Elm nəşriyyatı, - 1999. – s.7

məktəbi, İngiltərədə "Hiddətlənmiş cavanlar", Almaniyada "47-lər qrupu", ABŞ-da "Bitniklər", "Qara yumor" məktəbi, "Düşüncələr axını", "Eksperimental romançılar" və s. (rus ədəbiyyatında "kənd və "şəhər nəsri", bir sıra sovet ədəbiyyatlarında "lirik nəsr", "psixoloji nəsr", Azərbaycan ədəbiyyatında da "yeni nəsr" hadisələri dünyamiqyaslı dəyişimin regional təzahürləri idi.

Azərbaycan nəsrində məhz 1960-cı illərdən həyat hadisələrinin təsvirini mifoloji arxetiplər üzərindən qurmaq tendensiyası güclənir, mifoloji şüurun sxem-modelləri çağdaş dünyanın həyati və real məzmunu ilə doldurulur. Bu dövrdə *"folklor ənənəsi dünyanı bədii qavrayış prinsipinə çevrildi. Mifologizm və folklorizm bədii təfəkkürün etnik xüsusiyyətlərini ifadə üsullarından biri oldu. Məhz 1960-cı illərdən başlayaraq realist nəsrimizdə folklor elementləri statik materialdan, etnoqrafik fondan konseptual yaradıcılıq amilinə çevrildi"*[7].

1960-cı illər ərəfəsində həm Azərbaycan, həm də Amerika ədəbiyyatı "yeni insan"ı tapmağa çalışırdı. Yazıçılar İnsanı xilas etmək üçün yaddaşa, ulu keçmişə, əfsanəyə mif dünyasına üz tuturlar. İnsanın etnogenezini, keçmişini tapmadan bu gününü öyrənmək, gələcəyini təmin etmək mümkün deyildi. Qədim mifdə olan ilkinliyə, bakirəliyə, fəlsəfəyə və səmimiyyətə 1960-80-ci illər nəsrinin ehtiyacı var idi. Yusif Səmədoğlunun "Qətl günü" və Con Apdayk "Kentavr" romanları həmin ehtiyacdan yaranmışdı. Həmin illərin ədəbiyyata gətridiyi yeniliklər həm Con Apdaykın "Kentavr", həm də Yusif Səmədoğlunun "Qətl günü" romanlarında konseptuallaşır, bədii-estetik dərinlik qazanır, bu əsərlərdə mif örtük deyil, nüvədir, enerji mənbəyidir.

*Bu fəsildən əldə olunan əsas müddəalar müəllifin dərc edilmiş aşağıdakı məqalə və konfrans materiallarında işıqlandırılmışdır*[8].

Tədqiqatın ikinci fəsli "**Yusif Səmədoğlunun "Qətl günü"**

---

[7] Гаджиев, А. Поэтика совеменной прозы / Вопросы мифологического и фольклорного генезиса. А.Гаджиев. – Баку: Мутарджим, – 1997. – с.6

[8] Hacıyeva S. Nəsrin mifik mənşəyi // "Filologiya məsələləri" jurnalı, 2013, № 9, s.62-68; 60-80-ci illər Azərbaycan və Amerika nəsrində mifə müraciətin ədəbi-tarixi səbəbləri // "Dil və ədəbiyyat" jurnal, 2016, №3 [99], s.256-258;Historical Sources of Reference to Myth in American Prose in the 1960s // International Journal of Advanced Studies in Language and Commmunitation, St. Louis, Missouri, The USA, 2019, №2, pp. 41-46

**romanında mifologizm**” adlanır. Bu fəsildə mifik düşüncə modelinin müasir nəsr müstəvisində roman janrının estetik prinsipləri çərçivəsində interpretasiyasının poetik mexanizmi təhlil olunur, Baba Kaha obrazının mifik düşüncə ilə bağlılığının bədii və fəlsəfi mahiyyəti, simvolik məzmunu tarixilik və müasirlik kontekstində analitik təhlilin predmetinə çevrilir.

Bu fəslin “**Romanın janr estetikası və mifik düşüncə**” adlanan birinci paraqrafında Azərbaycan romanının yaranması və təşəkkülündə mifik düşüncənin oynadığı rola nəzər salınır. Qeyd olunur ki, 1980-ci illər Azərbaycan nəsrinin inkişafında xüsusi mərhələdir, məhz bu onillik 90-ların müstəqilliyini mədəni-mənəvi, ictimai-siyasi aspektlərdən hazırlamışdı. Bədii nəsr dövrün düşüncəsindəki bu hazırlıq prosesini bütün cəhətləri ilə göstərirdi, ən böyük yeniliyi də milli oyanış prosesində birbaşa iştirakı idi. Siyasi müstəvidəki totalitar yumşalmalar nəsrin bədii məcrasını dəyişirdi, o, milli mədəniyyətin genetik qaynaqlarına müraciət edirdi. “*Nəsrin axtarış və eksperimentləri nəticəsində müasir nəsrdə mifopoetik və folklor yaddaşına xas əlamətlər özünü göstərməyə başladı. Bu dövrdə nəsrdə mifopoetik və folklor motivlərinin təzahüründə Y.Səmədoğlu nəsrinin xüsusi yeri vardı. “Qətl günü” bu mərhələnin bütün əlamət və yeniliklərini özündə əks etdirə bilən yüksək sənətkarlıq xüsusiyyətləri ilə seçilən mükəmməl bir roman oldu*”[9].

Milli genetik ənənənin mifoloji və etno-psixoloji kodları, işarələri “Qətl günü” romanında qədim mətnlərlə müxtəlif şəkilli əlaqələr qurur, mif-ədəbiyyat əlaqəsinin fərqli təzahür formalarını təqdim edir. Mif və ədəbiyyatın sinkretikliyi “Qətl günü” romanında mifin fantastikaya, qeyri-adiliyə əsaslanan mahiyyəti ilə real hadisələrə əsaslanan tarixi həqiqətlərin sintezində özünü göstərir.

Mif gerçəkliyi bədii söz vasitəsi ilə sistemə salan təhkiyə kompleksidir. Həyatın mifoloji yaddaşda daşlaşan surəti, kölgəsidir. Mif eyni zamanda bədii gerçəklik olan universal dünya modelinin ayrı-ayrı mətnlərdəki ifadəsidir. Bəşəriyyətin fikri-mənəvi inkişafında əsatirlərin, əfsanələrin, miflərin rolunu tədqiqatçıların demək olar ki, hamısı təsdiq

[9] Əliyeva L.H. Yusif Səmədoğlunun nəsrində yaddaşın bədii-estetik funksiyası: / filologiya üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2018, – s.5

edir. Təbii ki, miflər bəşər övladının, ibtidai insan cəmiyyətinin formalaşmasında və zaman-zaman yetkinləşməsində müstəsna rol oynayıb, dünyanın harmonik dərkində əsas zəmin olub. "Sənətin arxeologiyası" əsərində Niyazi Mehdi yazır: *"Mifoloji strukturlar miflə niyə ölüb getmir, Ortaçağın və bütün sonrakı dönəmlərin mədəniyyətlərinə, incəsənətinə keçib, başqa-başqa geyimlərdə də olsa, onlarda alt strukturlar kimi yaşamaqda davam edir? Görünür, buna ağlabatan cavablardan biri belədir: mif özü insan ruhunun elə xarakterik sxemləri əsasında törəyir ki, onlar mif öləndən sonra da bilmək, tanımaq, anlatmaq məqsədi ilə edilən oxşatmaq, eyniləşdirmək əməliyyatlarında xarakterik strukturlar kimi iştirak edirlər"*[10].

"Qətl günü" romanında mifologizmin ünsürlərini şərtləndirən başlıca amillərdən biri obrazların dünyagörüşüdür. Canavara, Baba Kahaya, ulduzlara, işığa, yuxuya, o cümlədən ölümə mifoloji baxış əsasən obrazların baxışıdır. Həm keçmişin, həm müasir dünyanın adlarında mifoloji duyğuların əksi əsərdə "Keçmiş-indi" sərhədlərinin pozmağa imkan verir, bədii mətn mif tülünə bürünür. Belə ki, romanda rəmzi-metoforik ünsür ilk baxışda ənənəvi təsir bağışlayan ümumi axında az seçilir. Ancaq bu ünsür tədricən qüvvətlənir, əsas motiv səviyyəsinə yüksəlir. "Qətl günü"nün final hissələri getdikcə konkretlikdən məhrum olur, rəmzlər, metaforalar bir-birini əvəz edir. Bunun nəticəsi kimi, səhnələr rəmzi bədii reallığa çevrilir, romanın əsas ideyası burdan meydana çıxır.

"Qətl günü" romanında mifik düşüncə zahiri əlamətlərdə deyil, alt qatda, rəmzlərin yaratdığı təzadda, üslub və təhkiyəni formalaşdıran satirik – metaforik özüldə dayanır, şüurun yox, təhtəlşüurun təzahürü kimi diqqəti cəlb edir.

Ümumiyyətlə, "Qətl günü" istedadlı yazıçı Yusif Səmədoğlunun ağrı yaddaşından doğulan əsərdir. Üslubların və zamanların, talelərin və tarixlərin kəsişdiyi bu çoxşaxəli, çoxplanlı roman XX əsr Azərbaycan ədəbiyyatında bədii – fəlsəfi hadisədir, milli roman təfəkkürümüzün yüksək səviyyəsini əks etdirən mifik və tarixilik məcrasında yazılmış müasir psixoloji romandır.

---

[10] Mehdi, N. Sənətin arxeologiyası. Sənətin arxitektonikası / N.Mehdi. – Bakı: Qanun, – 2007, – s.21

Bu fəslin "**Baba Kaha obrazı: mifik məzmunu və simvolikası**" adlanan ikinci paraqrafında Baba Kaha obrazı mifoloji məzmunun müasir interpretasiyasını şərtləndirən simvolik funksiya baxımından araşdırılır.

Mədəniyyətin inkişafı və mifoloji irs arasında danılmaz əlaqəni şərtləndirən amillər var. Bunlardan birincisi mifoloji irsin təməl funksiyası daşıması, başlanğıc olmasıdır. Ədəbiyyat mifoloji xəzinədən, onun tematikasından, obrazlar sistemindən tarixin bütün dövrlərində bəhrələnib. "*Belə ki, insanların öz ətrafında baş verənləri "mif" olaraq dərk etdikləri və səciyyələndirdikləri arxaik mədəniyyətin izləri, mifyaratma dövrünün qalıqları sivilizasiyanın son həddinə çatmış, informasiya-kommunikasiya cəmiyyətini yaratmış bəşəriyyətin yaddaşında hələ də yaşamaqdadır.... Bugün gerçəklik dediyimiz dünyaya alternativ bədii dünya modelləri yaratmaq prosesində təhrikedici, cəlbedici, nağılvari, fantastik, realist və s. istəkləri gerçəkləşdirmək əslində qədim insanın mifyaratma prosesinin bir variantıdır*"[11].

Bəşəriyyətin yaddaşında və təhtəl-şüurunda möhkəmcə yerləşmiş miflər həm də sakrallığı ilə seçilir. Sakrallıq, müqəddəslik etalonları mifin unudulmazlığını təmin edir. Təhtəl-şüurun arxetip-sxemləri doldurmaq məqamında qeyri-ixtiyari mifə və mifdən törəyən hekayələrə müraciət etməsi məhz unudulmazlıq zənciri ilə bağlıdır.

İnsanı "*animal symbolicum*" yəni "*simvol yaradan məxluq*" adlandıran E.Kassirerə görə simvollar - gerçəkliyi bəyan edən formadır; o vəhdət, emblem, yaradıcılıq, məqsəd, idrak, mədəniyyət, məzmun və s. açan və ya onların mənalarına aparan yoldur)[12]. Bəşəriyyət simvolik dilin köməyi ilə onu əhatə edən dünyaya münasibət bildirir, simvolik mənalar sistemi yaradır. Mif, ədəbiyyat, dilin özü, bütövlükdə incəsənət simvolik məntiqlə daha çox bağlıdır. "*Simvol dili insanlığın yaratdığı tək universal dildir və tarixin gedişatında var olan bütün mədəniyyətlər üçün eynidir*"[13]. Mifoloji idrak sistemini anlamaq həm də simvolik dili

---

[11] Əliyeva, L.H. Yusif Səmədoğlunun nəsrində yaddaşın bədii-estetik funksiyası: / filologiya üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2018, – s.41

[12] İsmayılov, F. XX əsr Qərb fəlsəfəsinin tarixi//[2 cilddə] F.İsmayılov – Bakı: Təhsil, – c. 1. – 1999. – s.137

[13] Fromm, Erıch. Rüyalar, masallar, mitoslar.(Sembol dilinin çözümlenmesi)/ E.Fromm – İstanbul: Arıtan yayınevi, - 1992. - s.18

anlamaqla gerçəkləşir. Eyni zamanda müasir ədəbiyyatda bədii simvolikanın dilini çözmək mifik və folklor yaddaşına bələdlilik tələb edir.

“Qətl günü” romanı Azərbaycan ədəbiyyatında 1960-cı illər nəsrinin bədii axtarışlarının ən uğurlu yekunu olub çoxplanlı, çox aspektli əsərdir. Amerika yazıçısı U.Folknerin “Küy və qəzəb”, böyük türk ədibi Ç.Aytmatovun “Ağ gəmi”, “Əsrdən uzun gün”, “Cəllad kötüyü”, rus yazıçısı Bulqakovun “Usta və Marqarita” əsərləri kimi “Qətl günü” romanı da mifoloji düşüncənin imkanları, daha doğrusu hüdudsuzluğu kontekstində yazılmış orijinal bir romandır. Ümumiyyətlə, dünya ədəbiyyatında mifə qayıdışın özünəməxsus cəhətləri var idi. Bu hər şeydən əvvəl öz əslinə, kökə qayıdışla, ikincisi isə müasir həyatın eybəcərliklərinə etirazla bağlı idi. Onu bircə cümlə ilə harmoniyası pozulmuş dünyadan ibtidai dövrün nizamlı aləminə qayıdış adlandırmaq olar. Bu mənada “Qətl günü” romanında zibilliklər şahzadəsi Kirlikir müasir dünyanın, Baba Kaha isə mifik aləmin obrazı kimi qiymətləndirilə bilər. “*Burada kim vardısa, bilirdi ki, çox-çox uzaqlarda, hardasa dünyanın o başında bir külək yatağından baş qaldırır. Baba Kahanın zülmətində gərnəşir, oradan çıxıb, ağır-ağır, sürünə-sürünə batman ləngəri ilə torpaqda dərin şırımlar açırdı, daş-qayanın gövdəsinə uğultu sala-sala bu başıbəlalı dünyaya meydan oxumağa hazırlaşırdı. Burada kim vardısa həm çox-çox uzaqlarda həmləyə hazırlaşan küləyin qarğışını eşidirdi: ay iki ayaqlı bəndələr, kökünüz kəsilsin sizin*!”[14].

“Qətl günü” romanına Baba Kaha, Külək və Canavar insandan əvvəl daxil olur. Bu üç qüvvə insana – ikiayaqlı məxluqa qarşı durur.

Roman sadə təhkiyə-təsvir mexanizmi ilə yazılmayıb, öz evində rahat yatağında yatan xəstə ziyalının dilində təhtəlşüur düşüncələrin silsiləsi, yaddaşdan süzülən psixoloji təhlil tərzində qələmə alınıb. Burada təhkiyədə olay-hadisə və təhlil bir-birini tamamlayır. Bütün talelərə yazıçı Baba Kaha və Kirlikir obrazlarının prizmasından nəzər salır. Və demək olar ki, əsərdə ən möhtəşəm obraz – insanlığın ilk məskəni və insan yaşayan dünyanı idarə edən və rəmzləşdirən mifik obraz Baba Kahadır. Görkəmli nəzəriyyəçi Yaşar Qarayev romanı təhlil

---

[14] Səmədoğlu, Y. Qətl günü / Y.Səmədoğlu. – Bakı: Yazıçı, – 1987. – s.154

edərkən Baba Kahanın simvolik şərhini belə verir: "*Romanda ən maraqlı, sehirli və tilsimli, rəmzi və fəlsəfi simvol – Baba Kahadır..... İnsan öləndə cismi qəbrə, ruhu isə, teyfi isə Baba Kahaya tələsir... ...gecələr külək Baba Kahanın zülmətində gərnəşəndə o, ulduzların qəzəbini özündə toplayır və dünyanın günahkar "ikiayaqlılar"ına hədə göndərir: gəlirəm! Hadisələr də Baba Kahadan əsən küləyin təsviri ilə başlayır və bu külək cəza və qisas mənzilinə – qətl gününə çatanda roman bitir*"[15].

Romanın mifik strukturunu təmin edən müxtəlif atributlar var: Baba Kaha, Kirlikir qeyri-adi külək, canavar, yuxu. Bütün bunlar bir məqamda birləşir. O məqamın adı – Yaddaşdır! Romanda Xəstənin, feldşer Mahmudun, Zülfüqar kişinin yaddaşları bir məxrəcə gəlir. Beləliklə, yaddaş təkcə keçmiş illərin əhvalatını müasirliyə gətirmir, miflə müasirliyi öz müstəvisində birləşdirir. Romanın üslubunda, yazıçı təhkiyəsində mifoloji məzmun simvolik funksionallıq qazanaraq poetik strukturu formalaşdırır.

*Bu fəsildən əldə olunan əsas nəticələr müəllifin dərc edilmiş aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır*[16].

Tədqiqatın üçüncü fəsli "**Con Apdaykın "Kentavr" romanında mif və reallığın vəhdəti**" adlanır. Bu fəsildə Con Apdaykın "Kentavr" romanında qədim Kentavr mifinin semantik və metaforik şərhinin müasir insanın psixoloji ovqatını və mental əhval-ruhiyyəsini izah etmə qabiliyyətinə və gücünə diqqət yetirilib, mif və onun modern şərhi müqayisəli təhlilə cəlb olunub, ayrı-ayrılıqda mifoloji motivlərin rolunu və yerini təsbit etməklə insan və tarix, insan və mifik aləm, insan və zaman kimi bədii-fəlsəfi problemlər nəzərdən keçirilib.

Fəslin **"Romanda gerçəkliyin metaforik dərki və mif amili"** adlanan birinci paraqrafında konkret bir əsərin ədəbi faktları əsasında

---

[15] Qarayev, Y.Seçilmiş əsərləri/ [5 cilddə] / Y.Qarayev. – Bakı: Elm, – c. 3. – 2015. – s.552

[16] Hacıyeva S. "Qətl günu" romanının estetik konsepsiyasının formalaşmasında mifik düşüncə // Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, "Axtarışlar" jurnalı, Cild 6, 2016, № 1, s.83-89; Yusif Səmədoğlunun "Qətl günü" romanında Baba Kaha obrazı // Bakı Avrasiya Universiteti , "Sivilizasiya" jurnalı, 2016, №2, s.72-77; Yusif Səmədoğlunun "Qətl günü" və Con Apdaykın "Kentavr" romanlarının müqayisəli təhlili / Gəncə Dövlət Universiteti, Gənc alimlərin II beynəlxalq elmi konfransı, 26-27 oktyabr 2017-ci il. Gəncə: 2017, s.282-284.

mif və reallığın vəhdəti metaforik dünyagörüş kontekstində şərh olunur.

Con Apdayk (1932-2009) hələ sağlığında dünya oxucusunun diqqətini cəlb etmiş, sərhədlər aşmış bir yazıçı idi, ABŞ-ın və Fransanın nüfuzlu ədəbiyyat mükafatlarını almışdı. "Post-war" (müharibədən sonra) Amerika ədəbiyyatının yeni axarda formalaşmasının əsas iştirakçılarından idi.

Nəzəri fikir ədəbiyyatın şərhində öz təcrübəsinə, elmi qənaət və nəticələrinə istinad edir. Mətnin dili, bədii atmosferi, personajların identifikasiyası, mövzu və ideyası, forma xüsusiyyətləri, struktur komponentləri və s. haqqında mülahizələr söyləməyi üstün tutur. Ədəbiyyatın dərkində bir başqa tərəf də mövcuddur ki, bu adi oxucu, peşəkar olmayan mütaliəçinin baxışı ilə müəyyənləşir. Nəzəri kanonun tələbləri və qanunları ilə yüklənməmiş oxucular adətən daha anlaşıqlı əsərlərə üstünlük verirlər. Con Apdayk ədəbiyyatın bu iki qütbü arasında ortaq xəttdə dayanmağı bacaran sənətkarlardandır. O, öz yaradıcılığının səciyyəsi, mətnlərinin struktur-semantik məğzi, dildən istifadə üsulları, dillə oynamaları, obrazlaşdırma qabiliyyəti, təfərrüatlı təsvirçiliyi, usta təhkiyəsi ilə dünya ədəbiyyatşünaslığının daim diqqət mərkəzində dayana bilir.

Bilindiyi kimi, dünyanın dərkinin metaforik şərhi yaradıcılıqda müəllif fərdiyyətinin üzə çıxmasında xüsusi önəm daşıyır. İdrak nəzəriyyəsi metaforikliyi reallığın təsnifatını gerçəkləşdirmə prosesində bir məzmun haqqında başqa terminlərlə düşünmə üsulu və forması kimi izah edir. Gerçəkliyin məzmununu incəsənətin metaforik dili ilə ötürmək ciddi yaradıcı şüur və yanaşma tələb edir, metaforik inikas fərdi səciyyə daşıyır, obrazlı təfəkkürün unikallığın göstəricisidir. Pol Riker metaforanı bədii əsərlərin koqnitiv dəyərinin məhək daşı kimi səciyyələndirir[17].

Con Apdaykın "Kentavr" (1963) romanında dünyanın konseptual dərki metofarik düşüncə kompleksi ilə səciyyələnir, bu da romanın semantik yükünü artırır, obrazlı təfəkkürün qəliz, amma bir o qədər də maraqlı sxemini təqdim edir. Mif də öz növbəsində dünyanın konseptual dərki vasitəsidir, mürəkkəb səciyyə daşıyır və metafora ilə sıx şəkildə

---

[17] Ricoeur, Paul. Yorum Teorisi. Söylem ve Artı Anlam / P.Riceour. – İstanbul: Paradigma, – 2007. – s.59

bağlıdır. "*Amerika həyat tərzi kontekstində orta amerikalını, fərdin cəmiyyətlə münasibətlərini təmsil edən "Kentavr*"[18] romanında gerçəkliyin metaforik dərki miflə birləşir ki, bunun üçün yazıçı çox qəribə oyun mexanizmi qurur, dildən, xüsusi səslərdən istifadə edərək kod-sistem müəyyənləşdirir.

Con Apdayk modernist ədəbiyyatın nəhəng klassiki Ceyms Coys başda olmaqla, M.Prust, S.Kyerkeqor, J.P.Sartr, Edqar Alan Po, H.Melvill, U.Folkner kimi özündən əvvəl yaşamış sənətkarlar ilə mətnlərində qarşılıqlı dialoqa girmiş, janrın sərhədlərini aşaraq, mətnlərarası müstəvidə dolaşmağı bacarmışdı. Onun yaradıcılığını mətnlərarası kontekstə gətirib çıxaran önəmli və əhəmiyyətli vasitə məhz mifə istinad idi. "Kentavr" romanında mifin funksionallığından bəhs edən tədqiqatçılar bu əsəri ən çox Ceyms Coysun "Uliss" əsəri ilə müqayisə edirlər [19] .

Romanın antik yunan mifologiyası ilə bağlılığı, ümumən romanın mifik xətti haqqında yazıçının öz fikri belədir: "*Miflər romanda müxtəlif funksiyalarda iştirak edir: bəzən kontrastlığı hiss etdirir, bəzən onların vəzifəsi maddi aləmi dəf etmək üçün satiranı kəskinləşdirmək onu ideal aləmdən fərqləndirmək, Kolduelli maddi aləmdə özgələşdiyini daha kəskin nəzərə çarpdırmaqdan ibarət olur. Mən çalışmışam ki, realist inikas və miflər qarşılıqlı surətdə bir-birinə sirayət edərək bir-birini tamamlasın və gerçəklik mif üçün çalara çevrilsin*"[20].

Bu romanda hadisələrin baş verdiyi məkan - Pensilvaniyanın "Olinecer" qəsəbəsi antik mifologiyadan Olimpə bənzədilir. Ümumiyyətlə, romandakı personajların hər biri tutduğu mövqenin semantikasına görə mifoloji dünyanın qəhrəmanları ilə cütləşir. Oxucunun beynində oxu prosesində ikiləşmələr yaranır, bu ikiləşmənin

---

[18] Американская литература и общественно-политическая борьба: 60-е – начало 70-х гг. XX в // Сборник статей. – Москва: Искусства, – 1977, – с.50

[19] Boswell M. John Updike's Rabbit Tetralogy: Mastered Irony in Motion/ M. Boswell. - Columbia and London: University of Missouri Press, - 2001. – 253 p.; Detweiler, R. John Updike/ Detweıler. R. - Twayne Publishers, - 1984. - 200 p.
Hamilton A., Hamilton K. The Elements of John Updike. Eerdmans, 1970. - 267 p.; Morley, C. The Quest for Epic in Contemporary American Fiction: John Updike, Philip Roth and Don DeLillo/ C.Morley. – New York: - Routledge, - 2009. – 272 p.

[20] Стояновская, Е. Беседуя с автором «Кентавра» // Иностранная литература, 1965. – №1, –с.256

bir tərəfində əsərin gerçək personajları, o biri tərəfində isə Olimp personajları dayanır. Piter-Prometey, Kolduell-Kentavr Xiron, Vera-Afrodita (Venera), Hammel-Hefest, Doktor Zimmerman- Zevs paralelləri mətndə mif və reallığın əsrarəngiz vəhdətini yaradır.

C.Apdayk mifik obrazlarla real obrazların müqayisəli "lüğət"ini yaratmaqla əsərin mifik və müasir planını qurur, reallıq və mifin sinkretik vəhdətini yaradır, 1950-ci illərin Amerika gerçəkliyinin metaforik inikası mifin dərki və izahı ilə baş tutur.

Üçüncü fəslin sonuncu – **"Kentavr-Xiron (Kolduell) obrazı: psixologizm və mifin funksionallığı"** adlanan ikinci paraqrafında "Kentavr" romanında Kolduell obrazı psixologizm nöqteyi-nəzərindən şərh olunur, obrazın daxili dünyasının psixoloji təhlilində mifin funksionallığından bəhs olunur. Müasir dünyanı təmsil edən obrazın psixoloji təhlilində antik yunan mifologiyasından Kentavr-Xiron mifinin rolu və vəzifəsi müəyyən edilir.

Romanın epiqrafında deyildiyi kimi, "*....torpaqla səma arasındakı sərhəddə (Karl Bart)*"[21] bərqərar olan İnsanın taleyi romanın əsas problemidir. Əsərdə insan və tale, insan və dünya, insan və zaman kimi qlobal mahiyyətli, eyni zamanda dərin-fəlsəfi məzmunu olan məsələlərin bədii həlli öz əksini tapır. Con Apdayk mürəkkəb bədii mexanizm seçir, insana dair sualları Amerikanın kiçik Olinecer şəhərciyində, orta məktəbdə təbiətşünaslıq müəllimi işləyən Corc Kolduellin obrazı ətrafında məhdudlaşdırmır, onu ikiləşən obraz kimi çox məharətlə işləyir.

Belə ki, qədim yunan əsatirində heç bir günahı olmadığı halda zəhərli oxla yaralanan "kentavrların ən alicənabı" kimi şərh olunan Xiron ağrıya dözmədiyi üçün onu ölməzliyin əzabından qurtarıb öləri etməyi tanrılar tanrısı Zevsdən xahiş edir. Con Apdayk öz qəhrəmanı Kolduelli də əsərə məhz belə bir ağrı ilə daxil edir, bu da fərqli bədii psixologizmə çevrilir.

1960-80-ci illərin, bütövlükdə XX əsr nəsrinin səciyyəvi cəhətlərindən biri də psixologizmlə bağlılığıdır. "*Psixoloji varlıq olan İnsanın içi, içəri dünyası ictimai məzmundan (sosial əhatədən) tutmuş,*

---

[21] Apdayk, C. Seçilmiş əsərləri / C.Apdayk, tərc. ed. Vaqif Əjdəroğlu, redaktor: T.Kazımlı. – Bakı: Şərq-Qərb, – 2011. – s.306

*mənəvi-əxlaqi dəyərlərə, fəlsəfi sıraya (insan – varlıq, insan – dünya münasibətlərinə) qədər ən müxtəlif səviyyələrdə gəzişir, "öz həqiqətinə" yetməyə can atır. İnsanın iç dünyası nəsrin əsas predmetinə çevrildiyindən, məhz bu səbəbdən tənqidçilərin tez-tez yeni nəsrin aparıcı keyfiyyəti kimi təsbit etdikləri psixologizm qabarır, funksionallıq kəsb edir*"[22]. Kolduell obrazı dərin psixologizmlə səciyyələnir və bu obraz haqqında istər Amerika tənqidində, istərsə də dünya ədəbiyyatşünaslığında müxtəlif mülahizələr var. Tənqid Kolduelli obrazın kompleks bütövlüyündə, bütövlükdə kentavr və təbiətşünaslıq müəlliminin harmonik sinkretikliyində şərh etməkdə çətinlik çəkir, ikili vəziyyətdə qalır. Fikrimizcə obrazı tərəflərinə ayırıb təhlil etmək doğru deyil. Müəllim Kolduell mifik əslindən – Kentavr-Xirondan ayrılan kimi gülməli, qeyri-inandırıcı bir obraza çevrilir. Deməli, obraza kompleks yanaşmaq, onu reallığa – yerə endirmədən təhlil etmək lazımdır. Obrazın psixoloji tədqiqində bioqrafik və elmi təsəvvürlərdən yox, məhz "romanın mətnindən çıxış etməlidir" Romanın mətninə, nə yer, nə səma, nə də mifik aləm deyil, məhz bədii aləm, bədii məkan, bədiilik dünyasında nəzər saldıqda bu mürəkkəb obrazı açmaq, düzgün izah etmək mümkündür. V.A. Kostyakov yazır: "Corc Kolduel romanda həm real , həm də mifik obraz kimi qələmə alınsa da, qəhrəmanı əks etdirən bu ikili funksiya bir-birinə qarşı durmur, əksinə bir-birini tamamlayır. Kolduel obrazı dialektik şəkildə təsvir olunur. ....onun daxili iztirabları, qayğıları və xəstəlikləri ətraf problemləri aktual qəbul etməsi yalnız oğlu Piterin deyil , həm də bütün xalqın taleyi üçün narahatçılıqdır"[23].

Yazıçı mifik-bioqrafik, mifik-mistik, mifik-psixoloji, mifik-realist tərəfləri və komponentləri bünyəsində cəmləşdirən bu romanı kiçik və maraqlı bir epiloqla bitirir: "*Zevs öz köhnə dostunu sevirdi və onu indi Oxatan bürcünə çevrilmiş ulduzlar içərisində sayrışdığı səmaya apardı. Burada, Zodiakda üfüqün o üzündə gah çıxaraq, gah bataraq bütün arzularımızın həyata keçməsində iştirak eləyir, hərçənd son vaxtlar ölənlərdən çox az adam gözlərini səmaya ehtiramla zilləyir və tamamilə*

---

[22] Mustafayev, T. XX əsr Azərbaycan nəsrinin poetikası / T.Mustafayev, elmi redaktorları: Y.V.Qarayev, Ş.Alışanlı. – Bakı: Elm, – 2006. – s. 228

[23] Костяков, В.А. Американский роман середины XX в.: Концепцуальность жанра / В.А.Костяков, под редакцией: М.Н. Бобровой. – Саратов: Изд-во Сарат. ун-та, – 1988. – s.127

*az adam ulduzlardan öyrənir*"[24].

Səma üçün yarananlar yerdə, yer üçün yarananlar göydə yaşaya bilməz – Con Apdaykın sənətkar qayəsi budur. Yazıçı "Kentavr" romanında Amerika həyat tərzinə həm Səma ucalığından, həm də mif ibtidailiyindən, qədim dünyanın təmizliyindən nəzər salmaq istəmiş və buna uğurla nail olmuşdur. Adi bədii təxəyyül yox, təhtəlşüur əsasında yazılmış fəlsəfi–psixoloji "Kentavr" təkcə, XX əsr Amerika ədəbiyyatının yox, ümumən dünya ədəbiyyatının uğurlu bədii nümunələrindəndir.

*Bu fəsildə qarşıya qoyulan müddəalar və əldə olunan əsas nəticələr müəllifin dərc edilmiş aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır*[25].

"**Nəticə**"də dissertasiyanın əsas elmi-nəzəri müddəaları müxtəsər şəkildə xülasə olunmuşdur:

- Mədəniyyətlərin qlobal təmasında fərqli mədəniyyətlər bütün özünəməxsusluqları ilə iştirak edir, özünün zənginliyi və bənzərsizliyi ilə başqa mədəniyyətlərlə dialoq zonasına daxil olur, bu əslində qloballaşmanın müsbət tərəfidir, lokal mədəniyyətlərin dünyamiqyaslı ünsiyyəti nəticəsində ayrı-ayrı milli-mədəni faktların kultoroloji kollajı ortaya çıxmış olur. Önəmli olan bu kollajın özünün heterogen (müxtəlifcinsli) məzmununu qorumasıdır. Elm, texnika, texnologiya və ümumbəşəri dəyərlərlə yanaşı qloballaşmanın mədəni-mənəvi təmas nöqtəsində ədəbiyyat həm milli kimliyi müəyyən edən dominant qüvvə, həm də universallığa meyl edən sənət hadisəsi kimi çıxış edir.
- 1960-80-ci illər Azərbaycan və Amerika nəsrində ideya-bədii və fəlsəfi-estetik paralelliklərin - bədii mətndə sinkretikliyin aktuallaşması,

[24] Apdayk, C. Seçilmiş əsərləri / C.Apdayk, tərc. ed. Vaqif Əjdəroğlu, redaktor: T.Kazımlı. – Bakı: Şərq-Qərb, – 2011. – s.561

[25] Hacıyeva S. Con Apdayk yaradıcılığında mifologizm və avtobioqrofizm / Gənc tədqiqatçıların XVIII Respublika elmi konfransı, II cild, Bakı: 2013, s.175-178; XX əsr Amerika nəsri və Con Apdaykın "Kentavr" romanı // Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, Fundamental, humanitar və təbiət elmləri seriyası, 2013, № 4, s.143-144; XX əsr Amerika nəsri və Con Apdayk // "Filologiya məsələləri" jurnalı, 2013, № 8, s.343-348; Con Apdaykın alleqorik üslubu // "Dil və ədəbiyyat" jurnalı, 2014, №2 [90], s.169-173. Миф и реальность в творчества Джона Апдайка // Вестник Казахского Национального Педагогического Университета, Series of Philological Sciences, Алматы, 2017, № 2 [60], s.158-162.

dərin psixologizm, dünyanın metaforik və simvolik dərki, reallıqla irreallığın harmoniyası, mifə müraciət – mövcudluğu məhz ədəbiyyatın universallığından qaynaqlanır;

- Y.Səmədoğlunun “Qətl günü” və C.Apdaykın “Kentavr” romanlarında mifoloji motivlərin tədqiqi göstərir ki, mifoloji motivlər hər iki xalqın 1960-80-ci illər nəsr poetikasında xüsusi əhəmiyyət daşıyır, nəsr mətninin struktur-semantik bütövlüyündə iştirak edir, janr estetikasından obraz psixologizminə qədər geniş spektrdə formalaşdırıcı,təyinedici, adlandırıcı, izahedici funksionallıq daşıyır.

- Hər iki ədəbiyyatda mifə qayıdış və onun bədii-fəlsəfi nəticələri xüsusi nəzəri-tarixi əhəmiyyət daşıyır və ədəbi-tarixi səbəbləri vardır. Nəsrin poetik strukturunun zənginləşməsində, qloballaşma və mədəni konvergensiya kontekstində milli düşüncənin mühafizəsində, ənənənin müasir dünyaya transformasiyasında mifə qayıdışın müstəsna rolu var. XX əsrin qlobal səciyyəli mədəni-mənəvi əhval-ruhiyyəsinin, insan və dünya, insan və zaman, insan və tale kimi bəşəriyyəti düşündürən sualların cavablandırılmasında mif əsas vasitəyə çevrilir, modern dünyanın reallıqlarını anlamaq və şərh etməkdə birbaşa iştirak edir.

**Tədqiqatın əsas məzmunu və müddəaları müəllifin Azərbaycanda və xarici ölkələrdə dərc edilmiş aşağıdakı məqalələrində və iştirak etdiyi konfransların materiallarında öz əksini tapmışdır:**


1. Hacıyeva, S. Con Apdayk yaradıcılığında mifologizm və avtobioqrofizm // Gənc tədqiqatçıların XVIII Respublika elmi konfransı, II cild, – Bakı: – 2013, – s.175-178.
2. Hacıyeva, S. XX əsr Amerika nəsri və Con Apdaykın “Kentavr” romanı // – Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, Fundamental, humanitar və təbiət elmləri seriyası, – 2013. – № 4, – s.143-144.
3. Hacıyeva, S. XX əsr Amerika nəsri və Con Apdayk // – Bakı: Filologiya məsələləri jurnalı, – 2013. – № 8, – s.343-348.
4. Hacıyeva, S. Nəsrin mifik mənşəyi // Filologiya məsələləri jurnalı, – Bakı: – 2013, – № 9, – s.62-68.
5. Hacıyeva, S. Con Apdaykın alleqorik üslubu // – Bakı: Dil və ədəbiyyat jurnalı, –2014. – №2 [90], –s.169-173

6. Гаджиева, С. Миф в творчество Джона Апдайка // Научные исследования в сфере гуманитарных наук открытые XXI века, Международной конференции. – Пятигорск: – 23-24 апреля, 2015, – с.56-59.
7. Hacıyeva, S. “Qətl günü” romanının estetik konsepsiyasının formalaşmasında mifik düşüncə // Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Axtarışlar jurnalı, – Naxçıvan: – 2016. – Cild 6, – № 1, – s.83-89.
8. Hacıyeva, S. Yusif Səmədoğlunun “Qətl günü” romanında Baba Kaha obrazı // Bakı Avrasiya Universiteti, – Bakı: Sivilizasiya jurnalı, – 2016. – №2, – s.72-77.
9. Hacıyeva, S. 60-80-ci illər Azərbaycan və Amerika nəsrində mifə müraciətin ədəbi-tarixi səbəbləri // – Bakı: – Dil və ədəbiyyat jurnalı, – 2016. №3 [99], – s.256-258.
10. Hacıyeva, S. “Kentavr” romanında Kentavr-Xiron (Kolduell) mifik obraz kimi // Bakı Dövlət Universiteti, “Azərbaycan filologiyası: inkişafın yeni mərhələsi” mövzusunda Respublika elmi konfransı, – Bakı, – 2 noyabr, – 2016, – s.324-326.
11. Гаджиева, С. Миф и реальность в творчества Джона Апдайка // – Алматы: Вестник Казахского Национального Педагогического Университета, Series of Philological Sciences, 2017. – № 2 [60], –s.158-162.
12. Hacıyeva, S. Yusif Səmədoğlunun “Qətl günü” və Con Apdaykın “Kentavr” romanlarının müqayisəli təhlili // Gəncə Dövlət Universiteti, Gənc alimlərin II beynəlxalq elmi konfransı, – Gəncə, – 26-27 oktyabr, – 2017, – s.282-284.
13. Hacıyeva, S. Mifə müraciətin ədəbi-tarıxı səbəbləri // Gəncə Dövlət Universiteti, Gənc alimlərin IV Beynəlxalq elmi konfrans, – Gəncə, – 2019, – s.330-333.
14. Hajiyeva S.M. Historical Sources of Reference to Myth in American Prose in the 1960s // International Journal of Advanced Studies in Language and Commmunitation, St. Louis, Missouri, The USA, 2019, №2, pp. 41-46

Dissertasiyanın müdafiəsi _____ __________ 2021-ci il tarixində saat _________ AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED–1.05 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143. Bakı, Hüseyn Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ __________ 2021-ci_ il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.04.2021

Kağızın formatı: A5

Həcm: 45005

Tiraj: 100